# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MÜƏYYƏN ETDİYİ EKOLOJİ SİYASƏT

**Məhəmməd İmanlı**

*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası, Bakı*
*mahammad_imanli@mail.ru*

*"Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız".*
**Heydər Əliyev**

Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanda ekoloji mühitin sağlamlaşdırılması dövlət siyasətində prioritet məsələlərdən biridir.

Heydər Əliyev respublikamızda ekoloji problemlərin davamlı inkişaf prinsipləri əsasında həll edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Azərbaycan xalqının və dövlətçiliyinin inkişafında misilsiz xidmətləri olan Ulu Öndərin fəaliyyəti dövründə ölkədəki ekoloji vəziyyət həmişə xüsusi diqqət mərkəzində olub, ətraf mühitin mühafizəsi ilə bağlı müəyyən olunmuş prioritetlər üzrə tədbirlər görülüb. Heydər Əliyevin uzaqgörən siyasəti, o cümlədən, ekologiya sahəsində verdiyi tövsiyələr bu gün də görülən işlərdə rəhbər tutulmaqdadır.

Xalqımızın Ümummilli Lideri Abşeronun yaşıllıqlar diyarına çevrilməsi üçün bir çox tədbirlərin görülməsinə nail olub. Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə (1969-1982) yaşıllığın qədrini bilməyənlərə anlatdı ki, yaşıllıq olmayan yerdə həyat yoxdur. Hər kəs iki ağac əkib böyütməlidir. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra müharibə şəraitində, ağır vəziyyətdə olsaq da, nəinki Bakı şəhərində, eləcə də, respublikamızın bütün bölgələrində yaşıllığa diqqət yenidən artırıldı. Planetin ağciyərləri olan meşələrin qorunması yenidən gündəmə gəldi. Yaşıllaşdırma paytaxt Bakıda və Abşeronda bundan sonra başladı (7).

Qeyd edək ki, Heydər Əliyevin rəhbərliyi dövründə, 1969-1982-ci illərdə ətraf mühit sahəsində 8 qanun qəbul olunub, hökumət səviyyəsində 30-dan artıq qərar təsdiq edilib. Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilişi ilə bağlı təşəbbüsün müəllifi Ümummilli Lider Heydər Əliyev olub.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Bakının və Abşeron yarımadasının digər yaşayış məntəqələrinin keyfiyyətli içməli su ilə təmin olunması məsələsi yenidən aktuallaşdı. Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması çox vacib məsələ olan su təchizatı probleminin həllinə yeni bir təkan verdi.

Su təchizatında yaranmış problemləri həll etmək üçün böyük məbləğdə maliyyə vəsaiti tələb olunurdu. Zəngin idarəçilik təcrübəsi ilə tanınmış Azərbaycan Prezidenti Heydər Əliyevin tapşırığı ilə Respublika Hökuməti su təchizatı sahəsindəki vacib problemləri həll etmək üçün kredit ayrılması xahişi ilə Dünya Bankına (DB) və Avropa Yenidənqurma və İnkişaf Bankına müraciət etmişdir.

Böyük Bakının su təchizatı sisteminin yenidən qurulması layihəsinin həyata keçirilməsi üçün ilkin mərhələdə 94,9 milyon ABŞ dolları məbləğində vəsait ayrılması barədə qərar qəbul olunmuşdur. Dünya Bankı Ulu Öndərin səyi nəticəsində yaranmış siyasi sabitliyi nəzərə alaraq, keçmiş SSRİ respublikaları arasında ilk dəfə olaraq içməli su problemini həll etmək üçün bu cür qərar qəbul etmişdir. Nəzərdə tutulan layihə həyata keçirildikdən sonra şəhərimizin və ətraf regionun əhalisi kifayət qədər təmiz və keyfiyyətli su ilə təmin olundu.

1993-cü ildə yenidən hakimiyyətə gəlmiş Ulu Öndərimiz ekoloji məsələləri bir daha ön cərgəyə çəkdi və meşə, torpaq, su və s. haqqında bir sıra yeni qanunlar qəbul edildi. 1998-ci ildə ekoloji prioritetləri müəyyən edən "Ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Planı" hazırlandı. Bu Proqramda nəzərdə tutulmuş layihələrin həyata keçirilməsi nəticəsində Azərbaycanda müasir Təhlükəli Tullantılar poliqonu, Xıllı Nərə Balıqartırma zavodu inşa edildi (3).

2003-cü ildə Heydər Əliyev tərəfindən ekoloji siyasətin müasir strategiya sənədi olan "Ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişafa dair" Milli Proqram təsdiq edildi. Bu strateji proqram əsasında ətraf mühitin müxtəlif sahələri üzrə 4 milli və dövlət proqramları, Kompleks Tədbirlər Planı təsdiq edilib və həyata keçirilir (2).

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Bakının və Abşeron yarımadasının digər yaşayış məntəqələrinin keyfiyyətli içməli su ilə təmin olunması məqsədilə 2002-ci ildə Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilişi infrastruktur layihələri sırasında ən nəhəng layihələrdən biri hesab oluna bilər. Ulu Öndər

Heydər Əliyev 2000-ci ilin əvvəllərində respublikamızın sosial-iqtisadi həyatında baş verən sürətli inkişaf meyllərini, Bakı şəhərinin sənaye mərkəzinə çevrilərək böyüməsini və eyni zamanda, paytaxt əhalisinin sayının artmasını nəzərə alaraq, əhalinin və sənayenin suya olan tələbatının daha da yaxşılaşdırılması üçün yeni su kəmərinin çəkilməsini zəruri hesab edirdi və bu məqsədlə 2002-ci ildə Oğuz və Qəbələ rayonları ərazisindəki zəngin su ehtiyatlarının paytaxta gətirilməsi üçün Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilməsi barədə qərar verdi. Sonrakı illərdə su kəmərinin çəkilməsi ilə əlaqədar hazırlıq işləri görüldü və Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyevin tapşırığına əsasən proses daha da sürətləndirildi (10).

Sonrakı illərdə Ümummilli Lider Heydər Əliyevin ölkənin ekoloji vəziyyətinin yaxşılaşdırılması, ağacların əkilməsi, xüsusən də Bakıda və Abşeron yarımadasında yaşıllıq zolaqların genişləndirilməsi üçün verdiyi tapşırıqlar, su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, ölkənin su təchizatı, inkişafı və dirçəlişi istiqamətində gördüyü tədbirlər onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün də uğurla davam etdirilir (9).

Qeyd edək ki, respublikamızda ekoloji problemlərin həll edilməsini daim diqqətdə saxlayan, xüsusilə yaşıllaşdırmaya böyük önəm verən Ulu Öndər Heydər Əliyevin 2001-ci il 23 may tarixli Fərmanı ilə ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadənin ayrı-ayrı istiqamətləri ilə məşğul olan və fəaliyyətlərində bir-birini təkrarlayan Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi, Dövlət Hidrometeorologiya Komitəsi və "Azərmeşə" İstehsalat Birliyi ləğv edilib və bunların bazasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılıb. Respublika Prezidentinin 2001-ci il 18 sentyabr tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"si təsdiq edilib. Əsasnaməyə görə Azərbaycan Respublikası ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində ətraf mühitin qorunması, təbiətdən istifadənin təşkili, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü təbii sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası, hidrometeoroloji proseslərin müşahidəsi və proqnozlaşdırılması sahəsində dövlət siyasətinin həyata keçirilməsi nazirliyə tapşırılıb (8).

Bu gün beynəlxalq maliyyə institutlarının kreditləri və respublikanın dövlət büdcəsi hesabına respublikanın bütün rayon və kəndlərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üzrə layihələr uğurla həyata keçirilir. Xatırladaq ki, ölkədə ətraf mühitə mənfi təsir edən amillərin qarşısının alınması və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün Prezident tərəfindən "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı" təsdiq olunub. Plana uyğun olaraq, Abşeron yarımadasının və Xəzər dənizinin ekoloji durumunun yaxşılaşdırılması ilə bağlı işlənmiş müvafiq layihələr üzrə kanalizasiya xətləri çəkilb və təmizləyici qurğular kompleksinin tikinti-quraşdırma işləri başa çatdırılıb. Eyni zamanda Xəzər dənizinin sahilboyu zolağında, Abşeron yarımadasında və ölkənin digər regionlarında su hövzələrinin, havanın, torpağın təbii keyfiyyətinin bərpa olunması üçün tullantı suları təmizlənib, çirklənmiş torpaqlar rekultivasiya edilib, geniş sahələrdə meşələr və yaşıllıqlar salınıb, abadlaşdırma işləri aparılıb və digər zəruri tədbirlər həyata keçirilib (4).

Bütün bunlarla yanaşı, Naxçıvan Muxtar Respublikası da daxil olmaqla 12 rayonun 122 kəndində modul tipli sutəmizləyici qurğular quraşdırılıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən aldığımız məlumata görə, bu baxımdan 224 min insan Ümumdünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə təmin olunub. Bu istiqamətdə fəaliyyət davam etdirilməkdədir. Çox kiçik xərclə – 10,8 milyon manata bu qədər böyük işlər görülüb. Bu məsələ üçün 15 milyon manat vəsait ayrılmışdı, onun 4,2 milyonu vergi şəklində dövlətə qaytarılıb, qalan 10,2 milyon manat vəsait isə layihəyə xərclənib. Hazırda həmin qurğuların effektli istismarı üçün tədbirlər görülür (6).

Azərbaycanda yürüdülən ekoloji siyasətin əsas məqsədi indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin, iqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi ilə davamlı inkişafın təmin edilməsindən ibarətdir. Bu ənənə xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. Göründüyü kimi, Ulu Öndər Heydər Əliyevin ətraf mühitin mühafizəsi sahəsində əsasını qoyduğu siyasət bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Bu sahədə həyata keçirilən ardıcıl tədbirlər, görülmüş mühüm işlər ekologiya və ətraf mühitin mühafizəsi sahəsində də yeni nailiyyətlərin əldə olunmasına şərait yaradıb (5).

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasımn Konstitusiyası, Bakı, 2012
2. Azərbaycan Respublikasmın "Milli təhlükəsizlik haqqında" Qanunu. 29 iyun 2004-cü il
3. Azərbaycan Respublikasının Milli təhlükəsizlik Konsepsiyası // Azərbaycan" qəzeti, 24 may 2007-ci il

4. Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları //http://president.az/documents

5. Azərbaycan Prezidenti İlham Əliyev Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodunun açılışmda iştirak etmişdir // http://www.president.az/ articles/6875

6. Bağırov H. Azərbaycanda ekoloji problemlərin həlli istiqamətində irəliləyişlər // Dövlət idarəçiliyi.– 2014.– № 1(45).–S. 105-116.

7. Bağırov H. Müasir Azərbaycanın balanslaşdırılmış davamlı ekoloji inkişaf strategiyası. 12.05.2015 // http://xalqqazeti.com/az/news/politics/ 57091

8. Bağırov H. Azərbaycanın ekoloji təhlükəsizlik konsepsiyası davamlı inkişafa hədəflənmiş yeni yanaşmaları özündə ehtiva edir //Səs.-2016.-20 may//http://eco_m5_3 .pdf

9. Əliyev H. Müstəqilliyimiz əbədidir. 47 cilddə. 38-ci kitab (mart-may 2002). Bakı: Azərnəşr, 2011, 480 s.

10. Ələkbərov U., İmanov Q. Ekoloji sivilizasiya indeksi: konsepsiya və ilk tətbiq (ing. dilində) // İnsan və biosfer (MaB, UNESCO). Azərbaycan Milli Komitəsinin əsərləri. Bakı: Təhsil, 2011, 360 s.